**UOT:78.**

# D.D. ŞOSTAKOVİÇ VƏ AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ

***Məhərrəmova Gültəkin Sabir qızı***
***Gəncə Dövlət Universiteti***
**maharramovaagultekin@gmail.com.**

**Xülasə:** *Məqalə XX əsr musiqisinin klassiki, görkəmli rus bəstəkarı, pedaqoq, pianist və ictimai xadim, professor Dmitri Şostakoviçin zəngin yaradıcılıq irsinin və bəstəkarın Azərbaycan musiqi mədəniyyəti ilə əlaqələrinin öyrənilməsinə həsr olunub.*

*D.Şostakoviç yaradıcılığında həm öz xalqının, həm də dünya musiqi mədəniyyətinin ən yaxşı ənənələrinə əsaslanmış, yaşadığı cəmiyyəti narahat edən aktual problemləri yaratdığı musiqidə böyük bədii qüvvə ilə əks etdirmişdir.*

*XX əsrin ən böyük bəstəkarlarından biri Dmitri Dmitriyeviç Şostakoviç simfoniyalar və instrumental ansamblların, mahnı və iri həcmli vokal əsərlərin, musiqili səhnə əsərlərinin, kinofilmlərə və teatr tamaşalarına musiqinin müəllifidir. Bəstəkarın musiqisi obrazların zənginliyi və möhtəşəmliyi ilə seçilir.*

*D.Şostakoviçin yaradıcılığı, pedaqoji, ictimai fəaliyyəti Azərbaycan musiqi mədəniyyətinin, bəstəkarlıq məktəbinin inkişafına böyük təsir göstərmişdir. Azərbaycanın qüdrətli bəstəkarları Qara Qarayevin və Cövdət Hacıyevin bir bəstəkar kimi yetişməsində onun böyük rolu olmuşdur.*

D.*Şostakoviçin Azərbaycan SSR Xalq artisti fəxri adı ilə təltif edilməsi (1972) onun Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin inkişafındakı çoxillik fəaliyyətinə və xidmətlərinə verilən layiqli tarixi qiymətdir.*

**Açar sözlər:** bəstəkar, pianoçu, əsər, yaradıcılıq, musiqi mədəniyyəti

**Ключевые слова:** композитор, пианист, произведения, творчества, музыкальная культура

**Key words:** composer, pianist, piece of music, creativity, musikal kulture

Dmitri Dmitriyeviç Şostakoviç (1906-1975) musiqi tarixinə dahi bəstəkar, pianoçu, ictimai xadim kimi düşmüş böyük şəxsiyyətdir.

D.Şostakoviçin yaradıcılığı miqyası etibarı ilə çox genişdir. Bəstəkar musiqinin bütün janrlarına müraciət etmiş, simfonik əsərlər, vokal-instrumental və instrumental musiqinin bir çox növlərində, kamera janrlarında əsərlər yaratmış, kinofilmlərə və teatr tamaşalarına musiqi bəstələmişdir. D.Şostakoviç müraciət etdiyi musiqi janrlarının hər birində böyük novator kimi çıxış etmişdir.

Sənətşünaslıq elmləri doktoru, professor Ş.Həsənova "Musiqi tarixindən mühazirələr" adlı kitabında D.D.Şostakoviçin həyat və yaradıcılıq yolunu geniş işıqlandırmışdır. Müəllif yazır: "D.Şostakoviç XX əsr musiqisinin klassiki kimi müasir dövrün ab-havasını, gündəmdə olan ən aktual bəşəri problemləri qələmə alaraq, musiqidə böyük bədii qüvvə ilə əks etdirmişdir. XX əsr insanının keçirdiyi daxili sarsıntılar, hər cür zorakılığa qarşı etirazı və mübarizəsi Şostakoviç yaradıcılığında çoxcəhətli təcəssümünü tapmışdır" [4.115-116].

Pedaqoji elmlər doktoru, professor M.Dadaşova "Musiqi müəlliminin hazırlığının metodikası" adlı dərs vəsaitində qeyd edir ki, "Şostakoviçin yaradıcılığı böyük bir irsi əhatə edir. Bu həm də Bethovenin romantik ziddiyyətləri ilə, Çaykovskinin simfonik dramaturgiyası ilə, Musorqskinin ekspressiyası və obrazların iti xarakteristikası ilə bağlıdır". Daha sonra müəllif göstərir ki, "Bəstəkarın əsərlərinin məzmununda gərgin epizodlarla yanaşı insanın fikirlərinə, daxili aləminə seyr müşahidə olunur" [3.80-81].

D.Şostakoviç öz dövrünün mütəfəkkir filosofu və əsl sənətkar olmaqla XX əsr musiqisi tarixinə dahi simfonist kimi daxil olmuşdur. Bəstəkarın yaradıcılığından danışarkən ilk növbədə onun 15 simfoniyasının, simfonik poema və uvertüralarının, süitalarının adını qeyd etməliyik.

İnstrumental konsert janrı D.Şostakoviç yaradıcılığında mühüm yer tutur. Fortepiano ilə orkestr üçün 2, skripka ilə orkestr üçün 2, violonçel ilə orkestr üçün 2 konsert, viola ilə fortepiano üçün sonata bəstəkarın məşhur əsərləri sırasına aiddir.

D.Şostakoviçə dünya şöhrəti gətirmiş kamera-ansambl əsərləri içərisində trioları və 15 simli kvarteti geniş şöhrət tapmışdır.

Bəstəkarın fortepiano əsərləri (fortepiano üçün 2 sonata, "Aforizmlər" (1927), "24 prelüd" (1933), "24 prelüd və fuqa" (1951) silsilələri, uşaq pyesləri musiqi təlimində, tədris və konsert proqramlarında tez-tez müraciət edilən əsərlərdəndir.

D.Şostakoviçin xor əsərləri içərisində Y.Dolmatovskinin mətninə "Meşələr haqqında nəğmə" (1949) oratoriyası, Y.Yevtuşenkonun sözlərinə "Stepan Razının edamı" (1964) adlı xor poemasını qeyd etmək olar. Hər iki əsər solistlər, xor və orkestr üçün nəzərdə tutulmuşdur. Bəstəkarın müşayiətsiz (a kapella) xor üçün yazdığı əsərlərdən rus şairlərinin sözlərinə 10 poema (1951) xüsusilə qeyd edilməlidir.

B.Şostakoviçin vokal əsərlərindən A.Puşkin, M.Lermontov, R.Börns, V.Şekspir, M.Svetlov, Y.Dolmatovskinin sözlərinə yazılmış romans və mahnılar, M.Svetayevanın sözlərinə "6 şeir" (1973), "Krokodil" jurnalından götürülmüş sözlərə 5 romans (1965), "Mikalencelo Buonarottinin sonetləri" adlı süita (1974), F.Dostoyevskinin sözlərinə "Kapitan Lebyadkinin 4 şeiri" (1975) və s. əsərlərini qeyd etmək olar.

D.Şostakoviç 1940-cı illərdə M.Musorqskinin "Boris Qodunov", 1959-cu ildə "Xovanşina" operalarını yenidən orkestrləşdirmiş, 1962-ci ildə isə həmin bəstəkarın "Ölüm mahnıları və rəqsləri" adlı vokal silsiləsinin orkestr redaksiyasını yaratmışdır.

D.Şostakoviç musiqili səhnə janrlarına da müraciət etmiş, 3 opera və 3 balet yamışdır. Bəstəkarın N.Qoqolun əsərləri əsasında yazılmış "Burun" (1928) və "Qumarbazlar" (tamamlanmamışdır), N.Leskovun əsəri əsasında yaradılmış "Katerina İzmaylova" (1923) operaları, "Qızıl əsr" (1930), "Bolt" (1931) və "İşıqlı çeşmə" (1935) baletləri rus musiqili teatrın inkişafında özünəməxsus yer tutur.

D.Şostakoviç onlarla kinofilmə ("Ovod", "Kral Lir" və s.), bir çox dram əsərlərinin tamaşasına (Şekspirin "Hamlet", "Kral Lir" və s.) musiqi yazmış, bir sıra kino partiturasını konsert əsəri kimi işləmişdir.

D.Şostakoviçin Azərbaycan mədəniyyəti ilə bağlı geniş əlaqələri və fəaliyyəti haqqında istedadlı tədqiqatçı-alim Fərəh Sabir qızı Tahirova çox maraqlı monoqrafiya yazmışdır. "Дмитрий Шостакович и Азербайджанская музыкальная культура". ("Dmitri Şostakoviç və Azərbaycan musiqi mədəniyyəti") adlı bu fundamental elmi-tədqiqat əsərində müəllif D.Şostakoviçin Azərbaycanın professional musiqiçiləri ilə əlaqələrinə dair bir çox arxiv sənədlərini, məktubları və mətbuat materiallarını işıqlandırmışdır. Tarixi ardıcıllıqla xronoloji qaydada təqdim olunan faktlar, materiallar və hadisələr görkəmli bəstəkar və pedaqoqun Azərbaycan musiqi mədəniyyətilə bağlı həyat və yaradıcılıq salnaməsi haqqında təsəvvür yaradır [7].

Tədqiqatçı-alim A.Abduləliyev "Dmitri Şostakoviçin yaradıcılıq bioqrafiyasına dair yeni sənədlər" məqaləsində ("Musiqi dünyası" №2 (67) 2016) qeyd edir ki, Dmitri Şostakoviçin özünəməxsus yaradıcı dəst- xətti, melodikası, musiqi dili, kamera və simfonik əsərlərinin üslubiyyəti, orkestrovkası və orkestr dramaturgiyası, forma və bədii məntiqi, bəstə texnikası tələbələrindən Q.Qarayev və C.Hacıyevin yaradıcı təfəkkürünə, onların fərdi üslubunun formalaşmasına, həmçinin bir çox Azərbaycan bəstəkarlarının yaradıcılığına təsir göstərmişdir [1].

D.Şostakoviç Azərbaycanın bəstəkarlıq məktəbinə Qara Qarayev və Cövdət Hacıyev kimi qüdrətli şəxsiyyətləri bəxş etmişdir. Azərbaycanın görkəmli bəstəkarlarından Soltan Hacıbəyov və Elmira Nəzirova da D.Şostakoviçdən bəstəkarlıq dərsləri almışlar.

D.Şostakoviçin başda Üzeyir Hacıbəyli olmaqla, Azərbaycan bəstəkarları, dirijorları və musiqiçiləri ilə yaradıcılıq münasibətləri və dostluğu, Ü.Hacıbəylinin və Azərbaycan

bəstəkarlarının əsərləri haqqında dəyərli fikirləri və rəyləri, öz əsərlərinin Bakıdakı ifasına yüksək qiymət verməsi bəstəkarın həyat və yaradıcılıq bioqrafiyasının ayrılmaz səhifələridir. D.Şostakoviçin Azərbaycan musiqi mədəniyyəti ilə əlaqələrinin bir faktı da onun Ü.Hacıbəyliyə, Q.Qarayevə, C.Hacıyevə, S.Hacıbəyova, A.Məlikova, E.Nəzirovaya, Azərbaycan Bəstəkarlar İttifaqına, siyasi rəhbərlərə məktubları və avtoqraflarıdır. D.Şostakoviç Bakıya etdiyi səfərlərində, yazdığı məktublarında, iştirak etdiyi tədbirlərdə və görüşlərdə Azərbaycan musiqi incəsənəti ilə ciddi maraqlanmış, onun inkişafını və nailiyyətlərini izləmiş, bunlara münasibətini bildirmiş, öz ustad məsləhətlərini və rəylərini əsirgəməmişdir.

D.Şostakoviçin əsərləri Azərbaycanda həmişə ifa olunmuş, böyük maraq və sevgi ilə dinlənilmiş və yüksək qiymətləndirilmişdir.

1941-1945-ci illər müharibəsini, xalqın qəhrəmanlıqla Vətəninin müdafiəsinə qalxdığını əks etdirən bəstəkarın “Leninqrad” simfoniyası 1942-ci il oktyabrın 2-də və 3-də Bakıda Azərbaycan Dövlət Filarmoniyasında M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı və Azərbaycan Radio Komitəsi birləşmiş orkestrlərinin, Bakıdakı hərbi orkestrlərdən dəvət edilmiş 120 musiqiçi tərəfindən ifa olunmuşdur (dirijor Ə.Həsənov).

Sənətşünaslıq elmləri doktoru, professor S.Qurbanəliyeva “Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti” adlı məqaləsində haqlı olaraq qeyd edir ki, “XX əsrin görkəmli bəstəkarı, musiqi xadimi və pedaqoqu, SSRİ Bəstəkarlar İttifaqının katibi Qara Qarayevin və Cövdət Hacıyevin müəllimi Dmitri Şostakoviçin 1972-ci ildə Bakıya dəvət olunması, musiqi ictimaiyyəti ilə görüşməsi və Azərbaycan SSR Xalq artisti Fəxri adı ilə təltif edilməsi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə dəstəyi ilə həyata keçirilən milli musiqi mədəniyyətimizin inkişafına xidmət edən tədbirlərdəndir” [5.76].

D.D.Şostakoviçin əbədiyaşar musiqisi Azərbaycanda konsert və tədris reperturlarında geniş yer tutur, öyrədilir, öyrənilir. Bu məqsədlə keçirilən tədbirlərdən bir-neçəsini qeyd edək. 1996-cı ildə Ü.Hacıbəyli ad. Bakı Musiqi Akademiyası və Azərbaycan Rus İcması tərəfindən birgə layihə kimi Bakı Musiqi Akademiyasında D.D.Şostakoviçin anadan olmasının 90 illiyinə həsr olunmuş silsilə konsertlər və elmi konfrans həyata keçirilmişdir. 2006-cı ildə “Azərbaycanda Rusiya mədəniyyəti ili” çərçivəsində Heydər Əliyev Fondunun layihəsi və təşkilatçılığı, M.Rostropoviçin təşəbbüsü ilə D.D.Şostakoviçin anadan olmasının 100 illiyinə həsr olunan “Beynəlxalq Şostakoviç Festivalı” yüksək səviyyədə təşkil edilmiş (20-26 fevral, 2006), dünyanın musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır. Bu möhtəşəm incəsənət bayramında D.Şostakoviçin kamera, vokal, simfonik əsərləri, simfoniyaları, operalarından hissələr, Azərbaycanın və Rusiyanın tanınmış musiqi kollektivləri və musiqiçiləri tərəfindən ifa olunmuşdur. Azərbaycan və Rusiya mediası festivalın açılışını, festival çərçivəsində keçirilən konsertləri, bəstəkarın yaradıcılığına həsr olunmuş elmi konfransı geniş işıqlandırmışlar. Festivala D.Şostakoviçin və Azərbaycan musiqisinin yaxın dostu M.Rostropoviç də qatılmış, festivalın prezidenti missiyasını yerinə yetirmiş və bəstəkarın simfoniyalarına dirijorluq etmişdir.

2015-ci ilin sonlarında Beynəlxalq Şostakoviç Fondunun layihəsi əsasında Vyana şəhərində “Şostakoviç-Qarayev-Əlizadə” proqramı ilə təşkil olunmuş konsertlərdə D.Şostakoviçin, onun tələbəsi olan Qara Qarayevin və Qarayev məktəbinin davamçıları Fərəc Qarayevin, Firəngiz Əlizadənin əsərlərinin ifası maraqla qarşılanmışdır.

2016-cı il mart ayında Bakıda Rostropoviçlər muzeyində Şostakoviçin, Prokofyevin, Rostropoviçin əsərlərindən ibarət “Üç dahinin görüşü” adlı və digər bu kimi tədbirlər mədəniyyətlərarası dialoqa ölkəmizdə göstərilən xüsusi diqqətin təzahürüdür.

XX əsr musiqisinin nəhəng nümayəndələrindən biri olan D.D.Şostakoviçin əsərlərinə Azərbaycan musiqiçilərinin, musiqi kollektivlərinin repertuarında və musiqi təmayüllü tədris müəssisələrində bu gün də geniş müraciət edilir, bəstəkarın əbədiyaşar irsi tədqiq və təbliğ olunur.

### *Ədəbiyyat*

1. Abduləliyev A. "Dmitri Şostakoviçin yaradıcılıq bioqrafiyasına dair yeni sənədlər ". // "Musiqi dünyası"/, №2 (67, 2016). http://www.musigi-dunya.az
2. Abdullayeva L. "D.Şostakoviçin musiqisi nə barədə danışır". //"Musiqi dünyası" 1-2/ 148-2006. http://www.musigi-dunya.az
3. Dadaşova M. "Musiqi müəlliminin hazırlığının metodikası" (dərs vəsaiti). Bakı, 2010.
4. Həsənova Ş. "Musiqi tarixindən mühazirələr", II hissə. Bakı, 2012.
5. Qurbanəliyeva S. "Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti". //Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və memarıdır. Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Gəncə, 2013, I hissə. Səh.75-83.

Rus dilində:

6. Мазел Л. О стиле Шостаковича. Статьи по теории и анализу музыки. Москва,1982.
7. Таирова Ф.С. Дмитрий Шостакович и Азербайджанская музыкальная культура. Баку, 2006.

## ДМИТРИЙ ШОСТАКОВИЧ И АЗЕРБАЙДЖАНСКАЯ МУЗЫКАЛЬНАЯ КУЛЬТУРА

***Магеррамова Гюльтакин Сабир кызы***

***Резюме***

Дмитрий Шостакович классик, композитор, педагог, пианист и общественный деятель музыкальной культуры XX века. В статье изучается богатое творческое наследие композитора, а также исследуются вопросы взаимосвязей композитора с музыкальной культурой Азербайджана.

В своём творчестве Шостакович опираясь на лучшие традиции своего народа и мировой музыкальной культуры, с большой художественной силой отразил актуальные проблемы своего времени в музыке. Великий композитор оказал большое влияние на историю Азербайджанской музыки и развитие композиторской школы.

## DMİTRİ ŞHOSTAKOVİCH AND AZERBAİJANİ MUSİKAL CULTURE

***Meherremova Gultekin Sabir***

***Summary***

The article deas with the classik of the 20th century music – composer, pedagogue, Dmitri Shoctakovich`s rich creativity heritage.

The composer is studied in connection with the Azerbaijan muzikal culture.

Dmitri Shoctakovich was bazed on nthe best traditions of his people and the world music culture in his own work. He reflected the actual problems of his period in his music with great artistic force.

***Rəyçi:GDU-nun "Musiqi fənləri" kafedrasının baş müəllimi N.Haqverdiyeva***
***Musiqi fənləri kafedrasının 11 fevral 2021-ci il tarixli iclasının 08 saylı protokolu***
***Daxil olduğu tarix 24 aprel 2021-ci il***